# Əhali ilə müntəzəm keçirilən səyyar görüş-qəbullar razılıqla qarşılanır

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev mütəmadi olaraq qəsəbə və kəndlərdə əhali ilə görüşür, sakinləri narahat edən məsələlər və problemlərlə yaxından tanış olur, həlli istiqamətində tədbirlər görür, icrasını nəzarətə götürür. Əhali ilə müntəzəm keçirilən səyyar görüş-qəbullar razılıqla qarşılanır.*

## Nohurqışlaq kəndi



Martın 6-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Nohurqışlaq kənd sakinləri ilə görüş-qəbulu keçirilmişdir.

Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar idarə müəssisə və təşkilatların rəhbərləri iştirak etmişlər.

Səyyar qəbulda rayon icra hakimiyyətinin başçısı Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə, o cümlədən rayonda aparılan geniş quruculuq-abadlıq işlərindən danışaraq, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər haqqında danışmışdır. Başçı bildirmişdir ki, 2019-cu



ilin əvvəlindən başlayaraq ölkə Prezidenti tərəfindən əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması üçün çox mühüm islahatlar həyata keçirilmişdir. Həyata keçirilmiş tədbirlər respublika əhalisinin üç milyondan çoxunu əhatə edir.

O, ölkə başçısının qayğısı sayəsində bu gün rayonumuzun sosial-iqtisadi həyatında gerçəkləşən layihələrdən söz açmış, sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq sahələrində görülmüş işlər haqqında məlumat vermişdir.

Görüşdə Nohurqışlaq kəndinin də sosial-iqtisadi problemlərinin diqqət mərkəzində olduğu və həlli istiqamətində konkret işlərin görüldüyü RİH başçısı tərəfindən qeyd edilmişdir.

Kənd sakinləri rayonumuzda və Nohurqışlaq kəndində aparılan abadlıq-quruculuq işlərindən razı qaldıqlarını bildirərək, göstərilən qayğıya görə ölkə başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Çıxış edən kənd sakinlərindən Fazil Atakişiyev, Asif Mirzəmmədov və başqaları kənddəki köhnəlmiş elektrik dirəklərinin dəyişdirilməsinə, uşaq bağçası üçün yeni, müasir bina tikilməsinə köməklik göstərilməsini xahiş etmişlər.

Rayon icra hakimiyyətinin başçısı qaldırılan problemlərin həlli ilə əlaqədar aidiyyəti idarə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar vermişdir.

**"Qəbələ"**

---

## Zarağan kəndi

Martın 13-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayo-



nun Zarağan kənd sakinləri ilə səyyar görüş-qəbulu keçirilmişdir.

Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak etmişlər.

Tədbirdə RİH-nin başçısı Prezident İlham Əliyevin rəhbərliyi altında 2019-cu ildə ölkə vətəndaşlarının rifahının yaxşılaşdırılması ilə bağlı aparılan islahatlardan, sosial-iqtisadi sahədə qazanılan uğurlardan, görülən işlərin fonunda bölgəyə göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışmışdır.

Yaranan problemlərin vaxtında həlli istiqamətində bütün zəruri addımların atıldığını vurğulayan rayon icra hakimiyyətinin başçısı hər bir yaşayış məntəqəsində, eləcə də Zarağan kəndində əhalini narahat edən məsələlərin həlli ilə bağlı həyata keçirilən tədbirlərin, infrastruktur layihələrinin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Sonra sakinlər dinlənilmişdir. Çıxış edən vətəndaşlar əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlərə görə ölkə başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Kənd sakinlərindən Həzi-



ran Ömərov, Raziyə İsayeva, Siracəddin Həmidov, Çingiz Əhmədov, Könül Şahbəndiyeva və başqaları çıxışlarında yeni artezian quyusunun qazılmasını, ərazidə təzə transformatorların quraşdırılmasını və işıq xətlərinin təmir olunmasını, kəndarası yolların həmarlanmasını, həkim məntəqəsi üçün müasir bina tikilməsini xahiş etmişlər.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərlə bağlı əlaqədar təşkilatlarının rəhbərlərinə müvafiq tapşırıq və göstərişlər vermişdir.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto).**

---

## "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyalarına start verilib

Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısının tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli liderimizin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət--Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər bölgələri üzrə 10 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrini əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 23 min 444 nəfər iştirak edib. Budəfəki tur-aksiyada 3370 məktəbli iştirak edəcək.

## Ölkəmizə turistlərin marağı artır

Yanvar ayında Azərbaycana dünyanın 143 ölkəsindən 191,6 min və ya 2018-ci ilin eyni ayı ilə müqayisədə 2,9 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 29,1 faizi Gürcüstan, 11,2 faizi Türkiyə, 5,4 faizi İran, 4,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,7 faizi Ukrayna, 1,3 faizi İraq, 17,3 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, ölkəmizə yanvar ayında gələnlərin sayında daha çox artım Misir, Pakistan, Türkmənistan, Hindistan, Çin, Gürcüstan, Cənubi Koreya vətəndaşları arasında qeydə alınmışdır. İlin ilk ayında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 0,9 faiz artaraq 5,8 min nəfərə çatmışdır.

Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarına gəldikdə, yanvarda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə onların sayı 19,3 faiz artaraq 357,1 min nəfərə çatmışdır. Vətəndaşlarımızın 35 faizi İrana, 28 faizi Gürcüstana, 20,9 faizi Rusiya Federasiyasına, 10,2 faizi Türkiyəyə, 1,2 faizi Ukraynaya, 1,1 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,6 faizi digər ölkələrə səfər etmişdir.